# Ermənilər İrəvandakı "Göy məscidi" də UNESCO siyahısında öz adlarına çıxmaq istəyir

***Faiq Ələkbərli:** "İrəvandakı tarixi "Göy məscid"in Ermənistan tərəfindən UNESCO-nun Ümumdünya İrs Siyahısına salınması cəhdlərinin qarşısının alınması üçün tədbirlər görməliyik"*

**Saxtakarlıqda tayı-bərabəri olmayan ermənilər həm işğal altında saxladıqları ərazilərimizdə, həm də tarixi dədə-baba yurdumuz olan Qərbi Azərbaycandakı abidələrimizə qarşı saxtalaşdırma prosesini davam etdirirlər. Məlum olduğu kimi, ermənilər Qərbi Azərbaycandakı bəzi qədim alban-xristian abidələrini "erməni abidələri" kimi UNESCO-da qeydiyyatdan keçirməyə nail olublar.**

Bununla kifayətlənməyən bədnam qonşularımız indi də Azərbaycan türklərinə məxsus olan İrəvandakı "Göy məscidi" erməni abidəsi kimi UNESCO-nun siyahısına daxil etmək niyyətindədirlər. İranda səfərdə olan Ermənistanın Baş naziri Nikol Paşinyan İRNA-ya müsahibəsində bildirib ki, məscidin UNESCO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilməsinə dair müraciət hazırlayıb. O, həmçinin, deyib ki, bununla bağlı İran tərəfi ilə birlikdə iş aparılır və bəzi korrektələrdən sonra UNESCO-ya müraciət ediləcək.

Paşinyan əlavə edib ki, bu, İranla bu məsələ ilə bağlı ilk əməkdaşlıq deyil. "İranın səyləri sayəsində Müqəddəs Faddey və Müqəddəs Stepanos monastırları UNESCO-nun siyahısına daxil edilib" - deyə Ermənistanın Baş naziri bildirib.

**Tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Faiq Ələkbərli bizimlə söhbətində bildirdi ki, Ermənistanın "Göy məscid"i öz adına UNESCO-ya daxil etmək niyyətinin baş tutmasına heç cür imkan vermək olmaz. "Göy məscid"in 1760-cı (1765) illərdə Hüseynəli xan tərəfindən inşa etdirildiyini xatırladan F.Ələkbərlinin sözlərinə görə, bu məscid Azərbaycan türklərinə məxsusdur, onun nə farslarla, nə də qeyri-millətlərlə əlaqəsi yoxdur.** İrəvanın tarixi Azərbaycan şəhəri olduğunu deyən F.Ələkbərli qeyd etdi ki, soydaşlarımız indiki Ermənistan ərazisindən ermənilər tərəfindən deportasiya edilənə qədər bu məsciddə Azərbaycan türkləri ayin icra ediblər. İrəvanın köklü əhalisinin türklər olduğunu vurğulayan F.Ələkbərlinin sözlərinə görə, deportasiyadan sonra ermənilər bu məscidə əl uzadıblar.

İrəvanda yerləşən tarixi "Göy məscid"in adının ermənilər tərəfindən dəyişdirilərək "Fars məscidi" adlandırılmasının da növbəti erməni saxtakarlığı olduğunu deyən ekspert hesab edir ki, bu faktın özü də, bütövlükdə, bütün müsəlmanları, o cümlədən də Türk dünyasını ciddi narahat etməlidir. F.Ələkbərli qeyd etdi ki, Azərbaycan xanı tərəfindən inşa etdirilən bir tarixi məscidin "Fars məscidi" adlandırılması da absurddur. "İrəvandakı tarixi "Göy məscid"in - cümə məscidinin Ermənistan tərəfindən UNESCO-nun Ümumdünya İrs Siyahısına salınması cəhdlərinin qarşısının alınması üçün tədbirlər görməliyik. Ermənilər artıq dövlət səviyyəsində bu məkrli niyyətlərini ortaya qoyublar. Bilirsiniz ki, ermənilərlə farslar arasında isti münasibətlər mövcuddur və ermənilərin də indiyə qədər "Göy məscidi" dağıtmamasının səbəbi budur. Onlar məscidi dağıtmayıblar, amma adını dəyişib "Fars məscidi" qoyublar. Yəqin ermənilər "Göy məscidi" "fars mədəniyyətinin" örnəyi kimi UNESCO-ya daxil etmək istəyirlər. Paşinyan özü deyib ki, bu barədə İranla müştərək iş aparırlar. Hesab edirəm ki, bu barədə İran tərəfə də mesajlarımızı ötürməliyik. Bəlkə heç İranın bu məsələdən xəbəri yoxdur, Paşinyan onların adlarından danışır. Nəzərə alsaq ki, Paşinyan indiyə qədər bu cür saxta çıxışlar çox edib, bu baxımdan o, İran tərəfə şər də ata bilər. Hər halda, bu məsələ İran tərəfi ilə də dəqiqləşdirilməlidir".

F.Ələkbərlinin sözlərinə görə, türklərə aid bir məscidin xarici turistlərə, o cümlədən də BMT qurumuna "Fars məscidi" kimi təqdim edilməsi cəhdləri növbəti erməni saxtakarlığıdır. "Bu gün Ermənistanda bir nəfər də olsa türk qalmayıb, ermənilər onları öz tarixi yurdlarından didərgin salıblar. Oradakı bütün abidələrimiz saxtalaşdırılıb, məscidlərimiz dağıdılıb, yerlə yeksan edilib. Hazırda İrəvanda qalan yeganə ermənləşdirilməyən abidəmiz "Göy məscid"dir ki, onu da ermənilər məqsədli şəkildə İrəvana gələn xarici turistlərə "Fars məscidi" kimi təqdim edirlər. Azərbaycan türklərinə aid olan "Göy məscid"in "Fars məscidi" kimi təqdim edilməsi və onun bu adla UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi niyyəti tarixi həqiqətlərin təhrif olunmasıdır. Məqsəd də Qərbi Azərbaycandan tamamilə türk izlərini silməkdir" - deyə bildirən F.Ələkbərli vurğuladı ki, İrəvandakı "Göy məscid" 1760-cı ildə Hüseynəli xan tərəfindən inşa edilib və 1765-ci ildə tikintisi başa çatdırılıb. O, həmçinin, qeyd etdi ki, 1776-cı ildə şəhərdə olan səyyahların təsvirlərində gözəlliyinə görə şəhərin ən möhtəşəm abidəsi kimi təqdim etdikləri "Göy məscid" Şərq memarlığının nadir incilərindən sayılır.

Qeyd edək ki, erməni mənbələrinin bildirdiyinə görə, sovet hakimiyyəti qurulduqdan sonra, 1930-cu illərdə İrəvandakı bütün məscidlərin sökülməsi ilə bağlı qərar verilir. Guya erməni şairi Yeğişe Çarensin ciddi cəhdlərindən sonra onun "Mavi brilliant" adlandırdığı "Göy məscid" dağıdılmaqdan xilas olur və 1936-cı ildə məsciddə İrəvan tarix muzeyi yaradılıb. Ermənilərin yazdığına görə, II Dünya müharibəsi zamanı isə məscid həm də silah anbarı kimi istifadə olunub. Müharibədən sonra məsciddə təbiət muzeyi, 1952-ci ildə isə kiçik namaz otağında astronomiya həvəskarları üçün planetarium fəaliyyət göstərib. SSRİ dağıldıqdan sonra müsəlman ölkələri ilə əlaqə quran Ermənistan məscidi ibadət üçün açır və paralel olaraq 1991-ci ildə təbiət muzeyi, 1994-cü ildə isə tarix muzeyi məsciddən çıxarılır.

**Ermənistan mətbuatı yazır ki, 1995-ci ildə İranla Ermənistan arasında əldə olunan razılaşmaya əsasən, İran hökuməti məscidin yenidən təmir və bərpası xərclərini öz üzərinə götürür və 2006-cı ildə məscidin təmir və bərpa işləri başa çatıb. "Göy məscid" kompleksinin 24 metrlik minarəsi, 28 hücrəsi (kiçik otaq), kitabxanası, böyük zalı, minbəri yenidən bərpa edilərək istifadəyə verilib. Bununla da böyük tarixi saxtakarlığa yol verilib və ermənilər məscidi "Fars məscidi" kimi təqdim etməyə başlayıblar.**

***İradə SARIYEVA***



*"Ermənilər artıq dövlət səviyyəsində bu məkrli niyyətlərini ortaya qoyublar"*